Nəsib NƏBİOĞLU

## Gəlirəm, dağlar, gəlirəm

Gülüstanım, xanimanım,
Həsrətindən yanıb canım,
Ruhu sevinir anamın,
Gəlirəm, dağlar, gəlirəm.

Müqəddəs yurda dəyməyə,
Sənə nəğmə, söz deməyə,
Səcdə qılıb, baş əyməyə,
Gəlirəm, dağlar, gəlirəm.

Əs üstümə sərin külək,
Ağ buludlar lələk-lələk,
Nə çəkmişəm bilir fələk,
Gəlirəm, dağlar, gəlirəm.

Sən zərmisən, incimisən,
Gül çələngi, qönçəsisən,
Çox küsmüsən, incimisən,
Gəlirəm, dağlar, gəlirəm!

Bu ömür qaralı-ağlı,
Gendə qaldım qolu bağlı,
Yollanıram sinəm dağlı,
Gəlirəm, dağlar, gəlirəm.

Bir qanad taxıb uçmağa,
Bir bulaq üstə qaçmağa,
Güllərə könül açmağa,
Gəlirəm, dağlar, gəlirəm.

El-obanı soruşmağa,
Küsənlərlə barışmağa,
Torpağına qarışmağa,
Gəlirəm, dağlar, gəlirəm.

## Yuxum çin oldu, Allah

Ay Şuşa dağları, bu günə şükür,
Çəkilir başından dumanın, çənin.
Gərək dizin-dizin sürünəm gələm,
Gəlirəm, başına dolanım sənin.

Köksümə sıxacam bir dəli kimi,
Hər gülü, çiçəyi, yarpağı, Şuşam!
Yaman darıxmışam, gör neçə ildir.
Gözümə təpəcəm, torpağı, Şuşam!

Bu kövrək misralar sənindir sənin,
Varlığım yaşayır sənin adında.
Sənə istəyimi, sənə sevgimi,
Göndərdim şeirimin qanadlarında.

Qürbətdə daşıdım dərdi-sərini,
Sənin həsrətindən dəli kimiydim.
Bir ömür yaşadım əzab içində,
Kökdən düşən sazın sarı simiydim.

Elə darıxmışam səndən ötəri,
Doyunca öpəcəm torpağı orda.
Gözlərimdə qalmaz arzu-diləyim,
Görsəm dalğalanan bayrağı orda.

Şehli otlarını sığallayacam,
Bağrıma basacam orda hər gülü.
Hər bahar gələndə bilirsənmi heç,
Gözlərim arayıb Xarıbülbülü!

Ay tərlan xəyalım, məni dağların
Qayasına çatır, daşına çatır.
Qürbətdə heç nəyə gücüm çatmayır,
Gücüm gözlərimin yaşına çatır.

Sən əsir qalandan nələr çəkmişəm,
Bil, bahar ömrümü xəzan elədin.
Çox şükür, çox şükür axırda məni,
Bir Şuşa sevdalı ozan elədin.

Müjdə gözləyirdim, Şuşa müjdəsi,
Bu səhər başqa cür sökülürdü dan,
Nə vaxtdan üzünü görmürdüm sənin,
Mən nələr yaşadım bu ayrılıqdan.

Azadlıq sorağı verdi bu səhər,
Ömrümə yazılan gözəl gün oldu.
Sevincdən sözümü deyə bilmirəm,
Şükürlər olsun ki, yuxum çin oldu.